**Yaşar Qarayevə həsr olunmuş şeir**
**Nə deyim zamana, qardaş**

Sanki zülmət gecə çıraq itirdik,
Sanki yanıq çöldə bulaq itirdik,
Ölüm nə zamansız bir qəsbkarmış,
Şah dağından uca bir dağ tirdik.

Dərdinə loğmanlar əlac tapmadı,
Tale yaman imiş, yanan, a qardaş!
Nə tez qələmindən ayırdı səni,
Nə deyim, nə deyim zamana, qardaş?!

Gözəl arzuların açırdı gül-gül,
Budaq sındırırdı barın ilbəil,
Eləbil bağrıma ox batdı qəfil,
Qəddimi döndərdi kamana, qardaş!

Nur saçan zəkalar az yaranır, az,
Xəyalın dupduru, kamalaın ayaz,
Gözümün yaşına yaş demək olmaz,
Qandır gözlərimdən daman, a qardaş!

Möcüzə yaratdı sözlə ülfətin,
Göynədir, yandırır bizi həsrətin,
Sən ki övladısan əbədiyyətin,
Dayan ucalarla yan-yana, qardaş.

Deyirdin sağalım, bir durub gəzək,
Laçın dağlarında gəzdiyimiztək,
Neyləyim, belədir kor olmuş fələk,
Baxmayır yaxşıya-yamana, qardaş.

Sanki dağ döşündə çeşməydi sözün,
Övliya üzütək nurluydu üzün,
Döndü kitablara gecə-gündüzün,
Min bir zülm elədin bir cana, qardaş.

Ömür-gün yoldaşın ağartdı saçın,
Qoymaz odun sönə Laləylə Yalçın,
Gözün yumulanda qardaşın, bacın
Yalvardı göylərə, oyana qardaş.

Bütün türk elləri əziz simsarın,
Dönülməz diyara düşdü güzarın,
Ziyarətgah olar bir gün məzarın,
Sorağın yayılar cahana, qardaş,
Sən qalib gəlmisən zamana, qardaş!

***Hüseyn Kürdoğlu,***
***Şair, ədəbiyyatşünas***